# Fədakar alim, vətənpərvər insan



**Bu yazımızda hər kəsə öz həyat örnəyi ilə ibrət ola biləcək insan haqqında söhbət açacağıq. Bu şəxsiyyət, ömrünü dövlətçiliyin inkişafına və tərəqqisinə həsr edən tanınmış görkəmli torpaqşünas alim, ictimai-siyasi xadim, kənd təsərrüfatı elmləri doktoru, professor, 1952-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, 1974-cü ildə Azərbaycan Respublikası Əməkdar elm xadimi adına layiq görülmüş Azərbaycan Dövlət mükafatı laureatı (1978) Əliyev Həsən Əlirza oğludur.**

Sisyan rayonunun Comərdli kəndində 15 dekabr 1907-ci ildə Əlirza kişinin evində bir körpə dünyaya göz açır. Ailə onun adını Həsən qoyur. Həsən böyüdükcə ev işlərində ata və anasına kömək edər, onlara hər bir işdə yardımçı olardı. 5 oğlan, 2 qız olan ailə Sisyan rayonunun Comərdli kəndində beləcə böyüyürdülər...

1930-cu ildə Əlirza kişi oğlu Həsəni oxumaq üçün Gəncə şəhərinə yola salır. 23 yaşlı Həsən Gəncəyə gələrək sənədlərini Kənd Təsərüfatı İnstitutuna verir və torpaqşünaslıq, ümumi əkinçilik və təbiəti mühafizə fakültəsinə daxil olur. Onun torpağa bağlılığı, əməksevərliyi ilə torpaqda işləməklə fauna və flora ilə dərindən maraqlanması həyatında böyük dəyişikliklərə yol açır.Təbiətlə sıx əlaqədə olan Həsən, onu xalqa çatdırmaqla nə qədər böyük bir iş gördüyünü dərk edir və bu işlərə can-dildən ürək yandırırdı. Bu onun alın yazısı idi. O, böyük həyat məktəbi keçərək torpaqşünaslıq elminin dahisi oldu. 1952-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının akademiki seçilən Həsən müəllim 1947-ci ildə Azərbaycan Respublikası Əməkdar elm xadimi fəxri adına layiq görülür. 1941-1945-ci illərdə Böyük Vətən Müharibəsinin iştirakçısı olur...

Dağların zirvəsinə, ağaclara, yamaclara, meşələrə, hara baxarıqsa, təbiətin hər yerində Həsən müəllimin izini görərik. İnsan təbiəti necə sevərsə təbiət də onu o cür sevər, - deyib atalar. Həsən müəllim, torpağı əlinə götürərək ona diqqətlə baxır və birdən - "yox bu torpaqları öyrənmək üçün mütləq Stansionar Mərkəz yaratmaq lazımdır" - deyərək ayağa qalxır. "Torpaq deyib öldür məni, dirildim səni" kəlməsi bir an onun beynindən çəkilmir. Ağacların külli miqdarda yarpaqlarının tökülməsi və quruması, torpağın deqradasiyaya məruz qalması onun gözündən yayınmır. Həsən müəlim Bakıya gələrək Azərbaycan Respublikası rəhbərliyi qarşısında Pirquluda Stansionar Mərkəzin yaranmasını təklif etdi. Bu təklif bəyənilir. Bu mərkəz çöl şəraitində torpaq prosesləri və rejimlərinin öyrənilməsi və təbiətin yenidən dirçəlməsinə xidmət edir desək, yanılmarıq.

Ana təbiətin övladı olan Həsən müəllim torpaqların xəritəsini yaratmaq qərarına gəlir. 1953-cü ildə Azərbaycan torpaqlarının monoqrafiyası çap olunur. 1957-ci ildə isə Zaqafqaziyada ilk dəfə Azərbaycanın torpaq xəritəsi çap olunur. Beləliklə, yaratdığı laboratoriya 5 istiqamətdə fəaliyyətə başlayır. Yəni xəritəçəkmə rəqəmli sistemə keçərək hər bir koordinatoru 1 sm dəqiqliklə sənə göstərə bilir. Torpağın kadastrı yaradılır, torpağın monitorinqi, torpaqların ekoloji qiymətləndirilməsi, torpaqların ekoloji etikası. Bütün bunlar hamısı aqrar sahədə torpaqların elmi-tədqiqat işləri idi. 1995-ci ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkəmizdə Aqrar-torpaq islahatı həyata keçirir. Həsən Əliyevin yaratdığı xəritə bazası əsasında aqrar və torpaq islahatı gözəl nəticə verir.

Həsən Əliyevin "Həyəcan təbili" əsərində (Bakı, 1976, 1982) təbiətin və ətraf mühitin qorunması ilə əlaqədar insanlara həyəcanla müraciət edir. Ölkəyə başucalığı gətirən Həsən Əliyev coğrafiya elmləri üzrə yüksək ixtisaslı kadrlar hazırlanmasında böyük xidməti olub. O, Azərbaycan Respublikası Təbiəti Mühafizə Komitəsinin və Cəmiyyətinin yaradaraq onun sədri və Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti (1975-1990), "Azərbaycan təbiəti" məcmuəsinin baş redaktoru (1975-ci ildən 1993-cü ilə qədər) idi. Həsən Əliyev Yunanıstan (1958), Polşa (1960), ABŞ (1964, 1977), Rumıniya (1966), İsveçrə (1966), Avstraliya (1968), Kanada (1978), Yaponiya (1980), Almaniya (1981) və s. ölkələrdə keçirilmiş beynəlxalq konqreslərdə məruzələr etmişdir. Azərbaycan SSR Ali Sovetinin (10-11-ci çağırış) deputatı olmuş, Lenin , Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz, Vətən müharibəsi, "Şərəf nişanı" ordenləri, SSRİ Elmlər Akademiyasının N.İ.Vavilov adına Qızıl medalı ilə təltif edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutu Həsən Əliyevin adınadır. Həsən Əliyev Dünya Universitetinin elmi və mədəniyyət üzrə doktoru (ABŞ), İngiltərə Kraliça Biblioqraflar Cəmiyyətinin həqiqi üzvü olmuşdur.

1944-cü ildə Həsən Əliyev Pirsaat çay, Ağsu çay, Girdiman çay hövzələrində apardığı torpaq tədqiqatları üzrə Cənub-Şərqi Qafqaz çaylarının orta və aşağı axar torpaqlarına dair elmlər namizədliyini müdafiə etdi. Bundan sonra o, elmdə daha aktiv fəaliyyət göstərməyə başladı. 1940-44-cü illərdə Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi işlər üzrə direktor müavini oldu. 1949-cu ildə "Azərbaycan florası" 8 cildlik ensiklopedik kitab nəşr etdirdi. Bu elmlə məşğul olanlar üçün "Azərbaycan florası" cildliyi çox lazımlı kitabdır. Dövlət qoruqlarının yaradılması və yaşıllaşdırılması üçün Həsən Əliyev Çoğrafiya İnstitutunda Azərbaycan Təbiətini Mühafizə Cəmiyyəti kafedrası yaratdı.

Heyvandarlığın inkişafı üçün möhkəm yem bazası yaradılması Botanika İnstitutuna tapşırılır. 1949-cu ildə Həsən Əliyev Botanika İnstitutuna direktor təyin edilir, quraqlığa davamlı yem bitkiləri əldə etmək üçün bir çox bitki növlərindən laboratoriyaya müayinə üçün gətirir və uğur əldə edir. O, Kür-Araz ovalığında heyvandarlığı inkişaf etdirmək üçün bu bitkiləri orada artırmaq qərarına gəlir və beləliklə, yem bazasının əsasını qoyur.

1954-cü ildə respublikada 20-dən artıq elmi-tədqiqat institutları yaradılır və yeni buğda və pambıq toxumlarının yetişdirilməsi elmi-tədqiqat institutlarının əməkdaşlarına tapşırılır. Yeni buğda və pambıq toxumlarının yetişdirilməsi institutda müsbət həllini tapır. Beləliklə, ölkə yeni buğda və pambıq növləri yetişdirilməyə başlayır.

Torpağı eroziyadan, küləkdən, sürüşmədən qorumaq üçün ilk dəfə Həsən müəllim meşə zolağı saldırmağı qarşısına məqsəd qoyur. Bu məsələni Azərbaycan Respublikası rəhbərliyi qarşısında qaldırır. Müsbət nəticə əldə edir. Üzümçülüyü inkişaf etdirir. Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyev İttifaq miqyasında Azərbaycanı birinciliyə çıxarmaq üçün üzümçülükdən başladı. 1981-1982-ci illər Azərbaycan Respublikasında 2 milyon ton üzüm istehsal edildi. Bu da Azərbaycan Respublikasının uğuru demək idi.

Dəvəçidən çıxıb Qəndoba gedən sahəni "Həsən Əliyev yaşıllığı" adlandırırlar. Həsən Əliyevin təşəbbüsü ilə zeytun, ərik, badam bağları yaradılıb. Ceyranbatan gölünün ətrafı yaşıllaşdırılıb. Dağ yamaclarına yaşıl tinglər basdırılıb, Su Kanalının ətrafı yaşıllaşdırılıb. Ekologiya, botanika, bitkiçilik, təbii ehtiyatların qorunub daha səmərəli istifadə olunması üçün Həsən Əliyev Cənubi Qafqaz torpaqlarının əmələ gəlməsinin və coğrafiyasının tədqiqinə, Azərbaycanda Beynəlxalq Bioloji Proqramın işlənib hazırlanmasına böyük əmək sərf edib.

Azərbaycanın bölgələrində təbiət qoruqlarının yaradılması akademik Həsən müəllimin ən ümdə arzusu idi. O, meşə heyvanlarının artırılması üçün xüsusi qoruqların yaradılmasını Azərbaycan Respublikası rəhbərliyi qarşısında məsələ qaldırır və müsbət də nəticə əldə edir. O, dövlət təbiət qoruqları, o cümlədən biosfer qoruqlar; milli parklar; təbiət parkları; ekoloji parklar; dövlət təbiət abidələri; zooloji parklar; nəbatat bağları və dendroloji parklar; müalicə-sağlamlıq mərkəzləri və kurortların salınmasına nail olur. Biz indi də onun gözəl nəticəsini görürük. İndiki nəsil bu qoruqlardan görün nə qədər bəhrələnir desək, yanılmarıq. Göygöl, Qızılağac, Zaqatala, Türyançay, Pirqulu, Şirvan, Qarayazı, Bəsitçay, İsmayıllı, Qaragöl, İlisu, Şahbuz, Eldar şamı qoruqları yaradılır. Təbiət qoruqlarının yaradılmasında birbaşa akademik Həsən Əliyevin müstəsna rolu olmuşdur. O, bu qoruqları yaratmaqla bir daha təbiətin mühafizəsinə diqqət çəkmişdi.

*Bütün ömrünü torpaqşünaslıq və təbiətşünaslıq elminə həsr edən, bu sahədə konkret layihələr həyata keçirən görkəmli şəxsiyyət akademik Həsən Əliyevin gördüyü iş bu gün də öz bəhrəsini verməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində ölkəmizin hər bir sahəsində olduğu kimi kənd təsərrüfatı sektorunda da həyata keçirilən islahatlar görkəmli akademik Həsən Əliyevin vaxtilə yorulmadan çalışdığı sahənin inkişafından xəbər verir. Hər il respublikamızın bütün regionlarında yeni yaşıllıq zonalarının salınması bir ənənəyə çevrilmişdir və bu kampaniyada ölkə vətəndaşları böyük ruh yüksəkliyi ilə iştirak edirlər. Ümidvarıq ki, gələcək nəsillər görkəmlı akademik Həsən Əliyev irsini daha dərindən öyrənərək onun daim inkişaf etdirdiyi kənd təsərrüfatı sahələrinin çiçəklənməsinə yeni-yeni töhfələr verəcəklər.*

**Mirvari TAHİRLİ,**
**"Media Xəbər" və "Media News" qəzetinin baş redaktoru.**